İCBARİ TİBBİ SIĞORTA

TƏBİB
Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi



# AİLƏ HƏKİMİ KİMDİR?

Ailə həkimi ixtisasca həkim-terapevt və ya həkim-pediatrdır. Təcili və təxirəsalınmaz tibbi yardım istisna olmaqla, səhhətinizdə yaranan narahatlıqla bağlı ailə həkiminə müraciət edə bilərsiniz.

Ailə həkimi ailənin bütün üzvlərini müayinə və müalicə edir

Xəstəliklərin profilaktikası ilə məşğul olur

Tibbi göstəriş olduğu halda pasiyenti dövlət tibb müəssisəsində ixtisaslı həkimin müayinəsinə, eləcə də səlahiyyəti çərçivəsində birbaşa tibbi müayinələrə göndərir

# AİLƏ HƏKİMİNİ NECƏ SEÇƏ BİLƏRƏM?

- Yaşadığınız yer üzrə ən yaxın poliklinikaya, Ailə Sağlamlıq Mərkəzinə və ya kənd həkim məntəqəsinə müraciət edin.
- Qeydiyyatçıya şəxsiyyət vəsiqənizi və yaşadığınız ünvan üzrə qeydiyyata dair sənədi təqdim edin.
- Ərizə yazın və ailə həkiminizi seçin.

18 yaşına çatmayan vətəndaşların ailə həkimini seçməsi üçün ərizə onların qanuni nümayəndələri tərəfindən verilir.

Ailə həkimini seçmədiyiniz halda "Sığortaolunanların ilkin tibbi-sanitariya yardımı üzrə dövlət tibb müəssisəsinə təhkimolunma Qaydası" əsasında ailə həkiminə təhkim olunacaqsınız.

- Ailə həkiminə təhkim olunduğunuz tibb müəssisəsində ailə həkimini seçmək və məhdudiyyət qoyulmadan dəyişməkdə sərbəstsiniz. Lakin eyni vaxtda iki və ya daha çox tibb müəssisəsinə qeydiyyat üçün müraciət qəbul edilmir.
- Qeydiyyata alındığınız tibb müəssisəsini azı 1 təqvim ili keçdikdən sonra dəyişə bilərsiniz. Yaşadığınız ərazini dəyişdikdə isə yeni ərazidəki tibb müəssisəsinə vaxt məhdudiyyəti nəzərə alınmadan qeydiyyata alınmaq üçün müraciət etməlisiniz.

Ətraflı məlumat üçün **QR kodu** oxudun

its.gov.az

1542 ÇAĞRI MƏRKƏZİ